Etibarlı gömrük xidməti dövlət idarəçiliyinin dayağıdır

1991-ci ildə Azərbaycanın öz müstəqilliyini bərpa etməsi dövlətçilik tariximizin ən şanlı səhifələrindən biridir. Ulu öndər Heydər Əliyevin uzaqgörən və qətiyyətli siyasəti sayəsində Azərbaycanın müstəqilliyi dönməz xarakter adlı və dünya dövlətləri arasında öz layiqli yerini tutmağa nail oldu.

1994-cü ildən etibarən ölkədə başlanan inkişaf dinamikası, dövlətçiliyin möhkəmləndirilməsi və beynəlxalq arenada güclənməsi islahatların nəticəsi idi. Bu islahatlar sırasında gömrük siyasəti xüsusilə diqqət çəkirdi. Qısa müddət ərzində gömrük işinin təkmilləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və normativ-hüquqi bazanın istiqamətində atılan addımlar Azərbaycanın Ümumdünya Gömrük Təşkilatına inteqrasiyasını təmin etdi. Bu uğurlar təkcə ölkənin iqtisadi inkişafına deyil, həm də onun beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə xidmət etdi. Azərbaycanın gömrük sistemində aparılan islahatlar, milli iqtisadiyyatın qlobal iqtisadi sistemə uyğunlaşmasına və möhkəmlənməsinə şərait yaratdı. Beləliklə, Azərbaycan dünya ölkələri arasında modern, inkişaf etmiş və güclü bir dövlət kimi öz mövqeyini təsdiqlədi.

Hər bir dövlətin güclü təməlləri sərhədlərdən başlanır və etibarlı gömrük xidməti isə dövlət idarəçiliyinin ayrılmaz və vacib dayağı hesab olunur. Azərbaycanın iqtisadi strategiyasının həyata keçirilməsində və dövlətçilik prinsipinin möhkəmləndirilməsində gömrük xidməti mühüm rola malikdir. Bu sahədə əldə olunan uğurlar, həm ölkənin milli maraqlarının müdafiəsini təmin edir, həm də iqtisadi inkişaf prosesinə güclü təkan verir. Gömrük xidmətinin uğurları, eyni zamanda Azərbaycanın beynəlxalq səviyyədə öz mövqelərini daha da möhkəmləndirməsinə şərait yaradır.

Avropa və Asiya qitələri arasında körpü rolunu oynayan məşhur "İpək Yolu"nun Azərbaycandan keçməsi, ölkəmizin beynəlxalq ticarət və mədəni əlaqələrin mühüm mərkəzinə çevrib. Orta əsr mənbələri Azərbaycanın xarici ticarət əlaqələrinin qədim tarixə malik olmasını təsdiqləyir. IX əsrdə bu ərazilərdə gömrük vergilərinin tətbiq olunması, ölkənin artıq o dövrdən ticarət qaydalarını tənzimləyən inkişaf etmiş bir sistemə malik olduğunu göstərir. Azərbaycanın strateji mövqeyi və qədim gömrük ənənələri onu dünya iqtisadi əlaqələrinin mühüm qovşağına çevirmişdir.

XVIII əsrin sonları və XIX əsrin əvvəllərində Azərbaycanın Çar Rusiyası tərəfindən işğalından öncə, burada müstəqil şəkildə həyata keçirilən vergi və gömrük siyasəti mövcud olub. Lakin XIX əsrdə Rusiyanın bölgəyə olan marağının artması və regionda yaranmış siyasi gərginlik nəticəsində Şimali Azərbaycan Rusiyaya birləşdirildi. Bununla da imperiyanın iqtisadi sərhədləri cənuba doğru genişlənmiş oldu. Bakı şəhərində gömrükxananın təsis edilməsi Rusiyanın iqtisadi nəzarətini möhkəmləndirmək məqsədilə I Aleksandrın Rusiya İmperiyası Senatına 25 yanvar (9 fevral) 1807-ci ildə təqdim etdiyi "Bakı şəhərində gömrükxananın təsis edilməsi barədə" Fərmanla reallaşdı. Bu gömrükxana Həştərxan gömrük dairəsinin tərkibində fəaliyyət göstərirdi. Daha sonra Azərbaycanda Astara və Culfa kimi strateji əhəmiyyətli ərazilərdə gömrük məntəqələri yaradıldı.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra gömrük sistemi elmi-hüquqi əsaslarla təşkil olundu. Azərbaycan ərazisini qeyri-qanuni ticarət və qaçaqmalçılıqdan qorumaq məqsədilə 1918-ci il 12 iyul tarixində hökumət tərəfindən Qazax qəzasının Salahlı və Şıxlı kəndlərində, eləcə də Poylu dəmir yolu stansiyasında ilk gömrük postları yaradıldı. Gömrük sisteminin fəaliyyətə başlamasını təmin edən mühüm sənəd isə 1918-ci il avqustun 10-da qəbul edildi. Həmin dövrdə Azərbaycan parlamenti 1918-ci il 18 avqust tarixində qəbul etdiyi qanunla qaçaqmalçılıqla mübarizə aparmaq və ölkə sərhədlərini qeyri-qanuni ticarətdən qorumaq məqsədilə sərhədlər boyunca 99 gömrük postunun yaradılması üçün hüquqi baza yarandı. Bu postlarda 992 gömrük işçisi xidmət aparırdı. Təəssüf ki, AXC-nin süqutu digər sahələr kimi, gömrük sistemində başlanmış işlərin tamamlanmasını yarımçıq saxladı. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1992-ci il yanvarın 30-da Azərbaycan Gömrük Komitəsi yaradıldı. Həmin gün respublikada gömrükçülərin peşə bayramı günü kimi qeyd edilir.

Qeyd edək ki, gömrük komitəsinin yarandığı il ölkədə yaranmış gərgin siyasi vəziyyət bu qurumun fəaliyyətinə mənfi təsir göstərirdi. 1993-cü ildə xalqın çağırışı ilə respublika rəhbərliyinə gələn ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanı inkişaf mərhələsinə çıxardı. Məhz ötən əsrin 90-cı illərindən etibarən ölkənin ictimai-siyasi həyatında mühüm dəyişikliklər baş verdi, siyasi və iqtisadi sahələrdə ardıcıl islahatlar həyata keçirildi. Ulu öndərin uzaqgörən siyasəti, gömrük sisteminin formalaşması üçün verdiyi tapşırıq və dəyərli tövsiyələri bu qurumun modernləşməsində aparıcı rol oynadı. Prezident Heydər Əliyevin sərəncamına əsasən 1997-ci ildən etibarən 30 yanvar tarixinin gömrük əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilməsi ulu öndərin bu orqanın fəaliyyətinə verdiyi yüksək qiymətin, diqqət və qayğının bariz təzahürü idi.

Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda sahibkarlıq üçün əlverişli biznes mühiti yaradılır, xarici ticarətə geniş dəstək verilir və iş adamları üçün rahat, əlçatan xidmətlər formalaşdırılır. Gömrük işinin müasir tələblərə uyğun həyata keçirilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilib. Bu istiqamətdə Dövlət Gömrük Komitəsi üçün strateji hədəflər müəyyən olunub və onların icrasını təmin etmək məqsədilə xüsusi Fəaliyyət Proqramı hazırlanıb. Proqramda şəffaflığın artırılması, sahibkar məmnuniyyətinin yüksəldilməsi, gömrük prosedurlarının rəqəmsallaşdırılması və gömrük ödənişlərinin sabitliyinin təmin edilməsi əsas istiqamətlər kimi əksini tapıb. Eyni zamanda gömrük sistemində etibarlı hüquq-mühafizə tədbirlərinin həyata keçirilməsi prioritet vəzifələrdən biri kimi müəyyən edilib. Ölkənin orta və uzunmüddətli prioritet inkişaf istiqamətləri və müasir çağırışlar nəzərə alınmaqla strateji planlaşdırma aparılmış və yeni "Gömrük İNKİŞAF modeli" qəbul edilmişdir.

Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində azad edilmiş ərazilərdə gömrük orqanlarının fəaliyyətinin təşkili istiqamətində mühüm addımlar atılmışdır. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 4 iyun 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu"nda dəyişiklik edilməsi haqqında Prezidentin 5 may 2023-cü il tarixli Fərmanına əsasən 12 may 2023-cü il tarixli Sərəncamı ilə Şərqi Zəngəzur Gömrük İdarəsi təsis edilmişdir.

İşğaldan azad olunmuş ərazilərdə gömrük orqanlarının səmərəli fəaliyyətini təmin etmək məqsədilə mövcud ehtiyaclar və perspektivlər nəzərə alınaraq Şərqi Zəngəzur iqtisadi rayonu ərazisində "Laçın" gömrük postu və Zəngilan Beynəlxalq Hava Limanında "Zəngilan beynəlxalq hava limanı" gömrük postu yaradılmışdır. Eyni zamanda İran İslam Respublikasının ərazisindən keçməklə Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında kommunikasiya əlaqələrinin qurulması çərçivəsində Zəngilan rayonunun Ağbənd qəsəbəsində Azərbaycan Respublikası ilə İran arasında dövlət sərhədində yeni buraxılış məntəqəsinin layihələndirilməsi üzrə işlər davam etdirilir.

2024-cü ildə bütün sahələrdə olduğu kimi, gömrük sistemində də qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində zəruri addımlar atılıb. Ticarətin asanlaşdırılması konsepsiyası çərçivəsində rəqəmsal gömrük xidmətinin innovativ həllər hesabına genişləndirilməsi, sahibkar, vətəndaş, işçi məmnunluğunun təmin olunması prioritet istiqamətlər kimi müəyyənləşdirilib. 2024-cü il gömrük xətti ilə büdcə daxilolmalarında komitə tərəfindən dövlət büdcəsinə 6 milyard 648 milyon 703 min manat vəsaitin köçürülməsi təmin edilib ki, bu da illik proqnoza nisbətdə 213 milyon 700 min manat və ya 3,3 faiz çoxdur. Ötən il ərzində 35 min 255 hüquqpozma faktı aşkar edilib ki, bunlardan 1278-i cinayət xarakterli, 33 min 977-si inzibati xəta faktlarıdır. Ötən il narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə əlaqədar 96 fakt aşkar olunub və ümumilikdə 379 kiloqram 127 qram narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları qanunsuz dövriyyədən çıxarılıb.

Müasir texnologiyaların və rəqəmsal həllərin gömrük sisteminə tətbiqi Azərbaycan gömrük xidmətinin əsas strateji hədəflərindən biridir. Bu istiqamətdə mühüm addımlar atılaraq 2024-cü ilin əvvəlindən süni intellekt əsaslı maşın öyrənmə alqoritmləri ilə işləyən Avtomatlaşdırılmış Risk Analizi Sistemi (ARAS) istifadəyə verilib. Bu yenilik sərhədkeçmə və rəsmiləşdirmə proseslərini sürətləndirdi, əlavə vaxt və vəsait itkisini azaltdı, eləcə də uçot sisteminin daha səmərəli qurulmasına imkan yaratdı. Bununla yanaşı, gömrük xidmətlərinin vətəndaşlar və sahibkarlar üçün daha əlçatan və şəffaf olması məqsədilə "ÖZÜNET" və "Smart bot" layihələri həyata keçirilir. Bu sistemlər sayəsində gömrük əməliyyatları daha rahat, sürətli və şəffaf şəkildə icra olunur. Azərbaycan gömrük xidmətinin təşəbbüsü ilə hazırlanan Trans-Xəzər Gömrük Tranzit Portalı da mühüm yeniliklərdən biridir. Orta dəhliz boyunca yüklərin asan və operativ daşınmasını təmin edən bu sistem rəqəmsal və sadələşdirilmiş gömrük həllərini əhatə edir və beynəlxalq ticarətin daha səmərəli şəkildə həyata keçirilməsinə töhfə verir.

Musa BAĞIRLI,
"Respublika".